

Mərkəzi Seçki Komissiyası (MSK) 3705 seçki məntəqəsinin hamısında səsvermənin nəticələrini elan edib.

MSK göstəricilərinə əsasən, prezident seçkilərinin ikinci turunda hakim “Gürcü Arzusu” partiyasının dəstklədiyi müstəqil namizəd Salome Zurabişvili qalib olub.

Məlumatda eləcə də bildirilib ki, S.Zurabişvili seçicilərin 59,52% toplayıb bu isə 1 milyon 147 min 627 səs təşkil edir.

Güc Birlikdədir hərəkatının namizədi Qrigol Vaşadze isə 40,48% toplayıb bu isə 780 min 633 səs təşkil edir.

Gürcüstan prezidentinin inauqurasiya və and içmə mərasimi isə, dekabrın 16-da keçiriləcək. Məlumat üçün xatırladaq ki, Ölkəmizdə prezident seçkilərinin ikinci turu 28 oktyabrda gərçəkləştdrildi.